ABBASOVA ARZU ABİTURYENT,MİQ-SERTİFİKASİYA

## ABŞ İkinci dünya müharibəsindən sonra

ABŞ müharibədən qüdrətli dövlət kimi çıxdı.Dünyanın qızıl ehtiyatının yarıdan çoxu əlində cəmləndi.**Nüvə** silahına malik fövqəldövlət oldu.Müharibə dövründə ərazisində hərbi əməlliyyatların getməməsi iqtisadiyyatın inkişafına səbəb oldu. **F.D.Ruzveltin** vəfatından sonra prezident vəzifəsini icra edən **Harri Trumen(1945-1953) Yeni xətt** siyasətini davamı olan **Ədalətli xətt** proqramını irəli sürdü.Ordudan təxris olanlara təhsil və mənzil üçün kredit almağa,bizneslə məşğul olmaq üçün imtiyazlar verildi.Minimum əmək haqqının artırılması və ucuz mənzillər tikilməsi proqramı qəbul edildi.ABŞ-da **firavanlıq dövləti** yarandı. Konstitusiyaya edilən düzəlişə görə heç kim **iki dəfədən** artıq **prezident** seçilə bilməzdi.**1948-ci ildə** Milli Təhlükəsizlik Şurası və Mərkəzi Kəşfiyyat İdarəsi yaradıldı.**Senator Cozef Makkartinin** siyasətinə görə ABŞ əhalisi kommunist təhlükəsi ilə hədələnir və azadfikirli insanlara qarşı təqiblər edilirdi.**Trumen** ilk dəfə konqresdə **afroamerikalılara(qaradərililərə)** seçki hüququ verilməsi məsələsini qaldırdı.**Trumenin xarici siyasəti**-Əsas rəqib **SSRİ** idi.Xarici siyasət xətti **atom diplomatiyası** adlanırdı.

**1947-ci il Taft-Xartli qanunu** – Bu qanun həmkarlar ittifaqının fəaliyyətini və əmək münasibətlərini tənzimləyirdi.Müəyyən edilmiş fərqli vaxtlarda tətil etmək qadağan edilirdi.

**1947-ci il Trumen doktrinası** – Yunanıstan və Türkiyədə sovet təsirinin güclənməsinin qarşısını almağa yönəlmişdir.

**1948-ci il Marşall planı** – Avropadakı müttəfiqlərinə dağılmış iqtisadiyyatını bərpa etməsinə kömək üçün nəzərdə tutulmuşdur.Avropa dövlətlərinə **səddçəkmə** siyasəti adlanan hərbi yardım edilməsini təklif edirdi.

**Respublikaçı prezident Duayt Eyzenhauer (1953-1961)** – Onun dövründə bir sıra tədbirlər həyata keçirildi.Minimum əmək haqqı qaldırıldı.İstehsal prosesi avtomatlaşdırıldı. Ali Məhkəmə irqi-ayrı seçkiliyinin konstitusiyaya zidd olduğunu təsdiq etdi.Sənaye məhsulu istehsalı artdı.Xarici siyasətdə Koreya müharibəsinin **(1950-1953)** dayandırılmasına nail oldu.

**Prezident Con Kennedi (1961-1963) – 1960-cı il** seçkilərində **ilk** dəfə **katolik** kimi prezident seçildi**.Yeni üfüqlər**(yeni hüdudlar) adlanan islahat proqramı irəli sürdü.nəticədə iqtisadiyyat inkişaf etdi.**Daxili** siyasətin əsasını-vergiləri azaltmaq,təhsili yenidən qurmaq,irqi ayrı-seçkilik problemini həll etmək təşkil edirdi.**Qaradərililərin** təqib edilməsi dayandırıldı,qaradərili tələbələrin universitetlərə buraxılmadığı bəzi ştatlara ordu hissələri yeridildi.**Xarici** siyasət-SSRİ ilə münasibət,Latın Amerikasına maliyyə yardımı edərək ABŞ-dan asılı etmək,ABŞ-ın Avropadakı nüfuzunu saxlamaq.**1959-1962-ci illərdə** SSRİ ilə

ABBASOVA ARZU

**Kuba(Karib)**,**1961-ci ildə** Avropada **Berlin** böhranlarının yaranmasında ABŞ-ın rolu az deyildi.ABŞ-ın Kubaya müdaxiləsi SSRİ ilə münasibət gərginləşdi.

**Nüvə** müharibəsi təhlükəsi ilk dəfə real görünürdü.**1963-cü ildə Moskvada SSRİ,ABŞ,İngiltərə** arasında atmosferdə və su altında nüvə sınaqlarının qadağan olunması haqqında razılıq əldə olundu.**1963-cü ildə Kennedi** Texas ştatının Dallas şəhərində **sui-qəsd** nəticəsində öldürüldü.Bu hadisə tarixə **Əsrin cinayəti** kimi daxil oldu.

**Prezident Lindon Conson (1963-1969) –Sosializmin** alternativi bir cəmiyyət yaratmaq istəyi baş tutmadı.**1960-cı illərin** ortalarında yoxsulluğa qarşı mübarizə elan olundu.**Qaradərililərin** seçkilərdə iştirakı təmin edildi.**Mühacirət** haqqında qanunun təxirə salınması ilə ölkəyə yeni mühacir axınları sürətləndi.**1968-ci ildə** qaradərililərin nümayəndəsi **Martin Lüter Kinqin** öldürülməsi ilə başlanan ölkədə gərgin vəziyyəti düzəltmək üçün qaradərililərlə ağların **hüquq** bərabərliyi təmin edildi.Xarici siyasət-Sərt mövqe sərgiləndi.Yaxın Şərq münaqişəsində ABŞ İsrailin tərəfini tutdu.ABŞ Vyetnam gəmilərinin hücumunu bəhanə edərək **1965-ci ildə** Vyetnamı bombaladı.əslində isə ABŞ Uzaq Şərqdə SSRİ qarşısında öz mövqeyini gücləndirmək istəyirdi.ABŞ-ın Vyetnamda böyük itkilər verməsi **L.Conson** hakimiyyətini sarsıtdı.

**Prezident respublikaçı Riçard Nikson ( 1969-1974)** – **1968-ci ildə** qalib gələrək prezident seçildi.Onun **Yeni iqtisadi siyasət** proqramında qocalığa görə verilən təqaüdlər artırıldı.İşsizliyə görə müavinətlər verilməsi nəzərdə tutuldu.Bu dövrdə **iqtisadi** böhran və neft istehsal edən ölkələrin ABŞ-ı neftlə təmin etməkdən imtina etməsi ilə **enerji** böhranı baş verdi.**Xarici siyasət-SSRİ ilə ABŞ** arasında **raket** əleyhinə müdafiə və strateji hücum silahlarının məhdudlaşdırılması və azaldılması sahəsində müqavilələr bağlandı.**1973-cü ildə** ABŞ və SSRİ arasında əldə olunan razılığa görə Vyetnam müharibəsi dayandı,ABŞ qoşunları Cənubi Vyetnamdan çıxarıldı.Bu **Niksonun** nüfuzunu yüksəltdi.**1972-ci ildə** seçkilər zamanı Vaşinqtonun Uotorgeyt otelində demokratların dinləmə qurğusu qoyarkən yaxalanması tarixə **Uotorgeyt böhranı** kimi daxil oldu.Nəticədə Nikson **1974-cü ildə** istefa verdi Bu ABŞ tarixində **ilk** belə hadisə idi.Bu respublikaçıların nüfuzuna zərbə vurdu.Yeni prezident seçilənə qədər ABŞ tarixində **ilk dəfə** təyinatla vəzifələr tutan siyasi xadimlər tərəfindən idarə olundu.**1970-ci illərin** ortalarında ABŞ-da **iqtisadi** böhran baş verdi.Bu dövrdə xarici siyasət imperialist maraqların müdafiəsinə,kapitalizm dünysında lider rolunun saxlanmasına istiqamətlənmişdir.

**QEYD:Con Kennedi**-Ölkənizin sizin üçün nə edə biləcəyini deyil,sizin ölkəniz üçün nə edə biləcəyinizi düşünün.

**QEYD:İmpiçment(ingiliscə etimadsızlıq)**dövlət başçısı da daxil olmaqla yüksək

ABBASOVA ARZU

vəzifəli məmurlara etimadsızlıq göstərilməsi,habelə onlara qarşı məhkəmə qaydasında ittiham irəli sürülməsi prosedurudur.

**Respublikaçı Ronald Reyqan (1981-1989)** – **1980-ci il** seçkilərdə qalib gələrək prezident oldu.**Mühafizəkar inqilab xətti** irəli sürüldü.Onun **Reyqanomika** proqramına görə vergilərin və dövlət xərclərinin azaldılması nəzərdə tutulurdu.
**İqtisadi tədbirlər**-Xüsusi sahibkarlığın inkişafına çalışdı,sənayeyə kapital artırıldı,büdcə xərcləri azaldıldı,özəl sektorda dövlətin nəzarəti zəiflədi,neft üzərində dövlət nəzarəti ləğv edildi və xaricdən gətirilən neftin həcmi artırıldı.
**Sosial tədbirlər**-İşsizliyə görə büdcədən ayrılan müavinətlər ləğv edildi.Azgəlirli əhali vergilərdən azad olundu.
**QEYD:**Bu dövrdə ABŞ-da **ilk fərdi kompüter** istehsal olundu,**mobil telefon** rabitə şəbəkəsi yaradıldı.Hərbi xərclər artırıldı.
**Xarici siyasət-** ABŞ-ın strateji silahları yeniləşdirmək,ulduzlar müharibəsi proqramı adlanan strateji müdafiə təşəbbüsünü **(SMT)** irəli sürüldü.**1985-88-ci illərdə** SSRİ ilə aparılan danışıqlar nəticəsində yaxın və orta mənzilli raketlərin ləğvi haqqında müqavilə imzalandı.Bu tarixdə **nüvə** silahlarının bir hissəsinin məhv edilməsi haqqında **ilk saziş** idi.**Reyqan şər imperiyası** adlandırdığı SSRİ ilə dünyada nüfuz sahibliyi uğrunda mübarizədə ABŞ qələbə qazandı.Latın Amerikası ölkələrinə qarşı yenidən **Böyük dəyənək** siyasəti yeridilirdi.
**Reyqanomika proqramının nəticəsi** – iqtisadi böhran dayandırıldı,infliyasiya və işsizliyin səviyyəsi aşağı salındı,iqtisadiyyatın inkişafı sürətləndi.
**Prezident Ata Corc Buş (1989-1993)** – **1988-ci il** seçkilərdə qalib gəlmişdir.O,Reyqanın siyasətini davam etdirmişdir.Daxili siyasətdə uğurları davam etdirə bilmədi.xarici siyasətdə uğurlar əldə olundu.**1989-cu ildə Panamaya** hərbi müdaxilə təşkil edildi.**1990-cı ildə** Almaniyanın birləşməsinə daha tez reaksiya verildi.İsrail və ərəb dövlətləri ilə sülh danışıqlarının bərpasında vasitəçilik edildi.**1990-cı ilin** əvvəlində İran körfəzində baş verən münaqişəyə vaxtında hərbi müdaxilə edildi.ABŞ **Səhrada tufan(Səhra fırtınası)**əməliiyatını **1991-ci ildə** həyata keçirdi.Bu **Ata Buşun** əsas uğuru idi.Onun dövründə **soyuq müharibə** başa çatdı.**1992-ci ildə** büdcə kəsiri artdı və iqtisadi tənəzzül dərinləşdi.Bu da Ata Buşun növbəti seçkilərdə məğlub olmasına səbəb oldu.
**Prezident demokrat Bill Klinton (1993-2001)** – **1992-ci il** seçkilərdə qalib gəldi.Onun dövründə **F.Ruzveltin Yeni xətt** siyasəti davam etdirildi.
Vergi,sosial təminat və təhsil islhatları keçirildi.Büdcə kəsiri aradan qaldırıldı.Hərbi xərclər,İnflyasiya və işsizlik azaldıldı.**Xarici siyasətdə** Rusiya ilə normal münasibət,Balkanlarda sülhə nail olmaq,İsrail-Fələstin münasibətlərinin nizamlanmasına cəhd göstərmək,Qarabağ münaqişəsinin həlli üçün yaradılan **ATƏT-in** Minsk qrupu həmsədrlərindən biri olması mühüm tədbirlər idi.

ABBASOVA ARZU

**2000-ci ildə** ABŞ-da qalmaqallı prezident seçkilərində **Ali məhkəmə** demokrat partiyasının səslərini etibarsız saydı.

**Kiçik Corc Buş (2001-2009)** – Onun dövründə yeni **vergi qanunu** qəbul edildi.Vergilərin aşağı və yuxarı hədləri müəyyən edildi.On il ərzində vergilər xeyli ixtisar edilməli idi.**2001-ci il sentyabrın 11-də Nyu Yorkda və Vaşinqtonda** terror hadisələri baş verməsi **iqtisadi** tənəzzülə səbəb oldu.Bu dövrdə ABŞ dünya iqtisadiyyatının **üç** güc mərkəzindən **(ABŞ,Avropa,Yaponiya)** birinə çevrildi.**2001-ci ildə** ABŞ Əfqanıstana hücum edib hakimiyyətdə olan **Taliban rejimini** devirdi.**2003-cü ildə** İraqa hücum etdi və **Səddam Hüseyn rejimi** devrildi.Lakin burada iddia olunan kimyəvi silahlar tapılmadı.

**Prezident demokrat Barak Hüseyn Obama (2009-2017)** –**2008-ci ildə** seçilən ABŞ tarixində **ilk qaradərili** və valideynlərindən biri -atası müsəlman olan prezidentdir.Onun dövründə maliyyə böhranı baş verdi.Yüksək gəliri olan təbəqənin ödədiyi vergilər artırıldı.Büdcə kəsiri və işsizlik azaldıldı.Əfqanıstana **Taliban rejimi** ilə mübarizə üçün yeni qoşun göndərilməsi haqqında qərar qəbul etdi.**İraqdakı** ABŞ qoşunlarının sayının azaldılması və onların tədricən çıxarılması haqqında qərar qəbul etdi.

**Prezident respublikaçı Donald Tramp(2017-2021)-2016-cı ildə** seçkilərdə qalib gəldi.**İran,Şimali Koreya və Rusiya** ilə münasibətləri nizamlamaq üçün bir sıra addımlar atdı.ABŞ-ın vasitəçiliyi ilə Şimali Koreya və Cənubi Koreya arasında ikitərəfli danışıqlar aparılmasına başlanılsa da,bu proses uzun çəkmədi.

**Prezident demokrat Co Bayden(2021-2025)-2020-ci il** seçkilərdə qalib gəldi. Rusiyaya qarşı sərt çıxışlar etdi.**2022-ci il** fevralda Rusiyanın Ukraynaya müdaxiləsini pislədi.Ukraynaya hərbi və maliyyə yardımları etdi.

**QEYD:Soyuq müharibə**-İkinci dünya müharibəsindən sonra sosializm və kapitalizm sistemləri arasında gedən ideoloji-siyasi mübarizə.

ABBASOVA ARZU